AZƏRBAYCAN RESPUBLİKASININ
İQTİSADİYYAT NAZİRLİYİ YANINDA
DÖVLƏT VERGİ XİDMƏTİ

# AYLIQ SABİT MƏBLƏĞDƏ SADƏLƏŞDİRİLMİŞ VERGİNİN, MƏCBURİ DÖVLƏT SOSİAL SIĞORTA VƏ İCBARİ TİBBİ SIĞORTA HAQLARININ HESABLANMASI VƏ ÖDƏNİLMƏSİ

BAKI – 2024

# Aylıq sabit məbləğdə sadələşdirilmiş verginin, məcburi dövlət sosial sığorta və icbari tibbi sığorta haqlarının hesablanması və ödənilməsi

Bu bukletdə qeyd olunan fəaliyyət növləri ilə **fərdi qaydada**, muzdlu işçi cəlb etmədən məşğul olursunuzsa, Siz aşağıdakı qaydada hesablanan aylıq sabit məbləğlərdə sadələşdirilmiş verginin, məcburi dövlət sosial sığorta və icbari tibbi sığorta haqlarının ödəyicisisiniz!

**Cədvəl 1**

| **Fəaliyyət növlərinin adı** | **Aylıq sabit vergi məbləği (manatla)** | **Aylıq məcburi dövlət sosial sığorta haqqı** *(minimum aylıq əməkhaqqına nisbətən faizlə)* | **Aylıq icbari tibbi sığorta haqqı** *(minimum aylıq əməkhaqqına nisbətən faizlə)* |
|---|---|---|---|
| Toylarda, şənliklərdə və digər tədbirlərdə aparıcılıq, çalğıçılıq, rəqqaslıq, aşıqlıq, məzhəkəçilik və digər oxşar fəaliyyət | 20 manat | 5 faiz | 4 faiz |
| Fərdi foto, audio-video xidmətləri (foto studiyalar istisna olmaqla) sahəsində fəaliyyət | 15 manat | 5 faiz | 4 faiz |
| Çəkməçi, pinəçi | 5 manat | 3 faiz | 4 faiz |
| Saat, televizor, soyuducu və digər məişət cihazlarının təmiri | 10 manat | 3 faizi | 4 faiz |
| Fərdi yaşayış evlərində və mənzillərdə ev qulluqçusu, xəstələrə, qocalara və uşaqlara qulluq xidməti, dayə, fərdi sürücülük, ev təsərrüfatında təmizlik, bağban, aşpaz, gözətçi və iaşə obyektlərində müştərilərə xidmət göstərən fiziki şəxslər (ofisiant) | 10 manat | 3 faizi | 4 faiz |
| Nəqqaşlıq emalatxanalarının fəaliyyəti | 20 manat | 3 faizi | 4 faiz |
| Fərdi qaydada bərbər fəaliyyəti ilə məşğul olan şəxslər | 15 manat | 3 faizi | 4 faiz |
| Fərdi qaydada dərzi fəaliyyəti ilə məşğul olan şəxslər | 10 manat | 3 faizi | 4 faiz |
| Fərdi baytarlıq xidməti praktikası ilə məşğul olan fiziki şəxslər | 20 manat | 3 faiz | 4 faiz |

Fəaliyyət göstərdiyiniz yerdən asılı olaraq vergi məbləğinin hesablanması üçün yuxarıda qeyd olunan **Cədvəl 1**-dəki aylıq sabit vergi məbləğinə aşağıdakı **əmsallar tətbiq edilir**:

**Cədvəl 2**

| | |
|---|---|
| Bakı şəhərində (kənd və qəsəbələr daxil olmaqla) | 2,0 |
| Gəncə, Sumqayıt və Xırdalan şəhərlərində | 1,5 |
| Abşeron rayonunun qəsəbə və kəndləri (Xırdalan şəhəri istisna olmaqla), Şirvan, Mingəçevir, Naxçıvan, Lənkəran, Yevlax, Şəki və Naftalan şəhərlərində | 1,0 |
| digər rayon (şəhər) və qəsəbələrdə (kəndlərdə) | 0,5 |

Bununla belə, ödənilməli məcburi dövlət sosial sığorta haqqının hesablanması üçün yuxarıda qeyd olunan **Cədvəl 1**-dəki aylıq məcburi dövlət sosial sığorta haqqının məbləğinə aşağıdakı əmsallar tətbiq edilir:

**Cədvəl 3**

| | |
|---|---|
| Bakı şəhərində (kənd və qəsəbələr daxil olmaqla) | 2,0 |
| Abşeron rayonunda, Sumqayıt və Gəncə şəhərlərində | 1,5 |
| Digər şəhər və rayonlarda | 1,0 |

**Misal:** Fərdi qaydada bərbər fəaliyyəti ilə məşğul olan fiziki şəxsin sadələşdirilmiş vergi, məcburi dövlət sosial sığorta və icbari tibbi sığorta haqları üzrə aylıq məbləğləri ayrı-ayrı şəhərlərdə aşağıdakı qaydada hesablanır:

- **Bakı şəhərində** - 30 manat (15 manat * 2,0 əmsal) aylıq sabit vergi məbləği, 20,7 manat (345 manat * minimum aylıq əməkhaqqının 3%-i) * 2,0 əmsal) aylıq məcburi sosial sığorta haqqı, 13,8 manat (345 manat * minimum aylıq əməkhaqqının 4%-i) aylıq icbari tibbi sığorta haqqı olmaqla cəmi  64,5 manat;

- **Gəncə şəhərində** - 22,5 manat (15 manat * 1,5 əmsal) aylıq sabit vergi məbləği, 15,53 manat (345 manat * minimum aylıq əməkhaqqının 3%-i) * 1,5 əmsal) aylıq məcburi sosial sığorta haqqı, 13,8 manat (345 manat * minimum aylıq əməkhaqqının 4%-i) aylıq icbari tibbi sığorta haqqı olmaqla cəmi 51,83 manat;
- **Şəki şəhərində** - 15 manat (15 manat * 1 əmsal) aylıq sabit vergi məbləği, 10,35 manat (345 manat * minimum aylıq əməkhaqqının 3%-i) * 1 əmsal) aylıq məcburi sosial sığorta haqqı, 13,8 manat (345 manat * minimum aylıq əməkhaqqının 4%-i) aylıq icbari tibbi sığorta haqqı olmaqla cəmi 39,15 manat;
- **Qazax şəhərində** - 7,5 manat (15 manat * 0,5 əmsal) aylıq sabit vergi məbləği, 10,35 manat (345 manat * minimum aylıq əməkhaqqının 3%-i) * 1 əmsal) aylıq məcburi sosial sığorta haqqı, 13,8 manat (345 manat * minimum aylıq əməkhaqqının 4%-i) aylıq icbari tibbi sığorta haqqı olmaqla cəmi 31,65 manat.

**Nəzərə alın ki...**

- Vergi uçotunda olmadığınız halda, ilk növbədə qeydiyyatda olduğunuz ərazinin vergi orqanının vergi ödəyicilərinə xidmət mərkəzlərinə (“KOB evləri”nə, həmin ərazidə “ASAN Xidmət” mərkəzi olduqda isə yalnız “ASAN Xidmət” mərkəzinə) müraciət edərək Vergi Ödəyicisinin Eyniləşdirmə Nömrəsini (VÖEN) almalı;
- Qeyd olunan fəaliyyətə başlayanadək, istəyinizə uyğun olaraq növbəti ay, rüb, yarım il və ya il üçün aylıq sabit vergi məbləğini, məcburi dövlət sosial sığorta və icbari tibbi sığorta haqqını eyni vaxtda tam məbləğdə ödədikdən sonra qeydiyyatda olduğunuz və ya faktiki fəaliyyət göstərdiyiniz ərazi üzrə vergi orqanından “**Sadələşdirilmiş vergi üzrə sabit məbləğin, məcburi dövlət sosial sığorta və icbari tibbi sığorta haqqının ödənilməsi haqqında qəbz”** almalısınız*.

---

* Qeyd edilən “Qəbz”in alınması üçün yazılı müraciət edildikdə, müvafiq məbləğlərin ödənilməsini təsdiq edən ödəniş sənədləri müraciətə əlavə edilir (Mərkəzi Bankın informasiya sistemində ödəniş barədə məlumat mövcud olduqda ödəniş sənədi müraciətə əlavə olunmur), elektron qaydada müraciət edildikdə isə, müvafiq məbləğlərin ödənilməsi müraciətin edildiyi zaman elektron qaydada həyata keçirilir və ya ödəniş sənədi müraciətə əlavə edilir (Mərkəzi Bankının informasiya sistemində ödəniş barədə məlumat mövcud olduqda ödəniş sənədi müraciətə əlavə olunmur).

**Unutmayın ki...**

- Qeydiyyat yerindən asılı olmayaraq həmin fəaliyyətin faktiki həyata keçirildiyi ərazi üçün müəyyən edilən vergi və sosial sığorta məbləğləri ödənilir.
- Eyni dövr ərzində müxtəlif əmsallar tətbiq olunan ərazilərdə fəaliyyət göstərildikdə, ən yüksək əmsal tətbiq edilən ərazi üzrə müəyyən olunmuş sabit vergi məbləği ödənilir.
- Fəaliyyət növlərindən bir neçəsi ilə məşğul olduğunuz halda hər bir fəaliyyət növü üzrə ayrıca qəbz alınmalıdır.
- Nağd pul hesablaşmaları zamanı alıcıya qəbz və digər ciddi hesabat blanklar təqdim edilməlidir.
- Bu fəaliyyətə görə vergi orqanına bəyannamə verilmir.

**Həmçinin bilməlisiniz ki...**

- Fəaliyyətin göstərilib-göstərilməməsindən asılı olmayaraq ödənilən aylıq sabit vergi, məcburi dövlət sosial sığorta və icbari tibbi sığorta haqqı geri qaytarılmır və növbəti dövrlərin (ay, rüb, yarım il və il) vergiləri ilə əvəzləşdirilmir.
- Digər fəaliyyət növləri üzrə əldə edilən gəlirlərin və xərclərin uçotu hər bir fəaliyyət növü üzrə ayrı-ayrılıqda aparılmalı və bu fəaliyyət növləri üzrə mənfəət (zərər) digər fəaliyyət növündən əldə edilmiş mənfəətə (zərərə) aid edilməməlidir.

**Qeyd:** İşğaldan azad edilmiş ərazilərdə həmin ərazinin rezidentlərinə aylıq sabit məbləğdə sadələşdirilmiş vergi üzrə verilən azadolmalar, həmin azadolmaların tətbiq edildiyi subyektlər və əməliyyatlarla bağlı ətraflı məlumatı “İşğaldan azad edilmiş ərazilərdə vergitutma” adlı bukletdən əldə edə bilərsiniz.

# MALİYYƏ SANKSİYALARI, FAİZLƏR VƏ DİGƏR MƏSULİYYƏT TƏDBİRLƏRİ BARƏDƏ

Vergi və sığorta qanunvericiliyinin pozulması hallarına görə tətbiq olunan maliyyə sanksiyaları və digər məsuliyyət tədbirləri barədə məlumatı "Maliyyə sanksiyaları, faizlər və digər məsuliyyət tədbirləri barədə Yaddaş" adlı bukletdən əldə edə bilərsiniz.

VEGİLƏRƏ AİD NƏŞRLƏR


195

AZ1029, Azərbaycan, Bakı, Heydər Əliyev prospekti, 155
Tel.: (+994 12) 403 89 70; Faks: (+994 12) 403 89 71
E-poçt: office@taxes.gov.az

**www.taxes.gov.az**